http://www.amu.edu.az

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 03 (1643) 16 fevral 2017 - ci il Qiyməti 50 qəpik

# Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciədən 25 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeritmiş, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Həmin hərbi-siyasi təcavüz zamanı 613 həmvətənimiz, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca həlak olmuş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır.

BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini bu günədək tapmamışdır.

2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan ordusu tərəfindən torpaqlarımızın bir qisminin işğalçılardan azad edilməsi ölkəmizin ərazi bütövlüyünü hərbi yolla bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz olduğunu bir daha sübuta yetirmiş, beynəlxalq ictimaiyyətə mövcud status-kvonun qəbuledilməzliyini nümayiş etdirərək işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması tələbini yenidən gündəmə gətirmişdir.

Geniş vüsət almış "Xocalıya ədalət" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, belə ağır hərbi cinayət beynəlxalq miqyasda hələ ki, öz hüquqi qiymətini almamışdır.

Xocalı faciəsinin iyirmi beşinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 yanvar 2017-ci il.

## BU SAYIMIZDA



Rektor Gəray Gəraybəyli daha bir mötəbər tədbirdə iştirak edib 2



Dünya Bankının nümayəndələri ATU-da qonaq olub 2

Tələbələrimiz mükafata layiq görüldü 2

Tanınmış həkim Zemfira Topçubaşovanın anadan olmasının 90 illiyinə həsr edilmiş konfrans keçirilib 3



50-ci uşaq üzərində Koxlear implantasiya əməliyyatı aparıldı 7



ELMİ ŞURANIN QƏRARLARI HƏYATA KEÇİRİLİR 3

Tədris Cərrahiyyə Klinikasında nadir əməliyyat aparılıb 3



ŞEMESTR İMTAHANLARINDA YENİ METOD TƏTBİQ OLUNUB 4




Xocalı faciəsi XX əsrin ən böyük soyqırımıdır 6

# Rektor Gəray Gəraybəyli daha bir mötəbər tədbirdə iştirak edib

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Azərbaycan Tibb Universitetinin ardınca Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda Azərbaycan səhiyyəsinin inkişafında müstəsna xidmətləri olan görkəmli alim və dövlət xadimi, bacarıqlı səhiyyə təşkilatçısı, əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Əliyevin 120 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.**



Azərbaycanın tibb ictimaiyyəti nümayəndələri və xarici qonaqların iştirak etdiyi konfransda səhiyyə naziri, professor Oqtay Şirəliyev Əziz Əliyevin milli tibb kadrlarının hazırlanması yolunda göstərdiyi çoxşaxəli fəaliyyəti və müstəsna xidmətlərindən danışıb.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov Əziz Əliyevin həyat və fəaliyyəti barədə məruzə ilə çıxış edib.



Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli böyük alim Əziz Əliyevi xalqımızın tarixində, tibb elmində böyük rolu olan nadir şəxsiyyət adlandırıb. Bildirib ki, dünyada elə insanlar var ki, onlar təmsil etdikləri millətin, dövlətin həyatında böyük iz qoyurlar. Əziz Əliyev məhz belə insanlardan idi. Əziz Əliyevin həyat və fəaliyyəti barədə danışmaq həm asan, həm də çətindir. Tarixin heç də asan olmayan dövründə çalışan bu ləyaqətli insan hər işi şərəflə, peşəkarlıqla, vətənpərvərliklə yerinə yetirib.

Rektor Tibb Universitetinin təşəkkül tapmasında və əldə etdiyi nailiyyətlərdə danılmaz rolu olan görkəmli alimin Azərbaycan səhiyyəsi üçün peşəkar kadrlar yetişdirdiyini bildirib. Qeyd edib ki, bu universitetə rəhbərlik etdiyi illərdə Əziz Əliyev ali təhsil müəssisəsinin işini daha da təkmilləşdirib. Həmin illərdə Tibb Universiteti üçün Azərbaycan dilində çoxlu sayda kitab yazılıb. Əziz Əliyev səhiyyənin maddi-texniki bazasının təkmilləşdirilməsinə, peşəkar kadrların hazırlanmasına böyük önəm verib. Həmçinin ATU-nun kitabxanası da professor Əziz Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə yaradılıb. Hazırda bu kitabxana bir milyona qədər adda tibbi ədəbiyyata malikdir.

G.Gəraybəyli bu günlərdə Dağıstanda olduğunu, orada elmin və təhsil sisteminin inkişafının banisi sayılan Əziz Əliyevin yubileyinə həsr olunmuş silsilə tədbirlərdə iştirak etdyini deyib.

Əziz Əliyevlə bağlı xatirələrini bölüşən M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin direktoru, akademik Böyükkişi Ağayev alimin həm dövlət işində, həm də elmdə qazandığı uğurlardan danışıb. Akademik bu böyük şəxsiyyətin onun yaddaşında sadəliyi və qayğıkeşliyi ilə qaldığını vurğulayıb.

Əziz Əliyevin Dağıstan xalqı qarşısında əvəzsiz xidmətlərindən danışan Dağıstan Dövlət Tibb Universitetinin prorektoru Ruslan Şahbanov təmsil etdiyi universitetin rektoru, professor Süleyman Mammayevin konfrans iştirakçılarına məktubunu səsləndirib.

Azərbaycan Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev ailə üzvləri adından atasına göstərilən diqqətə görə dövlət başçısına və tibb ictimaiyyətinə öz minnətdarlığını bildirib.

Sonra konfrans iştirakçılarına Əziz Əliyevin ictimai və elmi fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

# Dünya Bankının nümayəndələri ATU-da qonaq olub

**Bu günlərdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli Dünya Bankının rəhbər nümayəndələri ilə görüşüb. Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə Praktika Meneceri cənab Kristian Aedonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə bir sıra mühüm məsələlər müzakirə olunub.**





Qonaqlara ATU haqqında ətraflı məlumat verən professor G.Gəraybəyli bildirib ki, ATU-da tədris sistemində daim islahatlar aparılır, təhsilin keyfiyyətinin artırılması istiqamətində fəaliyyət daha da təkmilləşdirilir. Qeyd olunub ki, artıq universitetdə 5 ildir ki, ikipilləli təhsil sistemi tətbiq olunur. Rezidentura pilləsini bitirən məzunlar mütəxəssis həkim sayılırlar. Onlardan bəziləri elə ATU-nun klinikalarında işləyir. Bir çoxları isə xarici ölkələrdə staj keçirlər. Tibb Universiteti beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə ciddi önəm verir. Çünki bu əlaqələr fərqli təhsil sistemləri ilə tanışlıq, yeniliklərin tətbiqi və nəticədə tədrisin təkmilləşdirilməsinə yardım olur. Bu baxımdan, Dünya Bankı ilə müştərək layihələrin həyata keçirilməsi çox əhəmiyyətlidir.

Bakıda səfərdə olan cənab Aedo öz növbəsində Dünya Bankının təhsil sahəsində gördüyü işlər, dəstəklədiyi prqoramlar haqqında məlumat verib. Qeyd edilib ki, bu dəfəki səfərin əsas məqsədi təhsil üzrə milli prioritetləri müzakirə etmək və tələbə krediti proqramları üzrə seminarı təşkil etməkdən ibarətdir. Buna görə də bank təmsilçiləri müvafiq dövlət qurumları, universitet rektorları və digər maraqlı tərəflərlə görüşlər keçirirlər.

Görüş zamanı Azərbaycan Tibb Universitetində Dünya Bankının dəstəyilə bir sıra layihlərin icra oluna biləcəyi barədə fikir mübadiləsi aparılıb. Qarşılıqlı əməkdaşlığın əhatəsini müəyyənləşdirmək üçün ilkin araşdırma aparılması da qərara alınıb. Ümumilikdə, beynəlxalq təhsil və tədqiqat layihələrində əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Dünya Bankının təhsil üzrə baş mütəxəssisi və tapşırıq qrupu rəhbəri cənab Ceyson Uaver, məsləhətçi Bryus Çapman, ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov, beynəlxalq əlaqələr şöbəsinin müdiri İkram Rüstəmov da iştirak ediblər.

# Tələbələrimiz mükafata layiq görüldü

**Nəsimi rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "2 fevral – Gənclər günü"nə həsr olunmuş təntənəli bayram tədbiri keçirilib. Toplantıda ictimai-siyasi həyatda, təhsildə və digər sahələrdə fərqlənən gənclərə mükafatlar təqdim olunub.**



Təqdiredici haldır ki, mükafat alan gənclər arasında Azərbaycan Tibb Universitetinin də tələbələri yer tutub. Universitetin əczaçılıq fakültəsinin IV kurs tələbəsi, ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) fakültə üzrə sədri Mirtaleh Mirzəzadə ATU-nun ictimai-siyasi həyatında aktiv iştirakına görə xüsusi diplomla təltif olunub.

ATU-nun II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Fidan Süleymanlı isə "Qadınlarda intiharın klinik psixopatoloji və patopsixoloji xüsusiyyətləri" mövzusundakı araşdırmasına görə xüsusi mükafata layiq görülüb. Bu tədqiqat işi ATU-nun Tələbə Elmi Cəmiyyətinin (TEC) konfransında dinlənilib və müzakirə edilib.

Bayram tədbirində rayonun ictimai-siyasi həyatında, təhsil, idman, elm, mədəniyyət və s. sahələrində fərqlənən 35 gəncə müxtəlif nominasiyalar üzrə Nəsimi rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları və qiymətli hədiyyələr təqdim olunub.

Gənclər gününə həsr olunmuş tədbirdə Milli Məclisin üzvlərindən Məlahət İbrahimqızı, Asim Mollazadə, Aydın Hüseynov, Ülvi Quliyev, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva, Azərbaycan Dillər Universitetinin rektor əvəzi Əfqan Abdullayev, Azərbaycan Universitenin rektoru Fərid Əhmədov, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Gənclər Fondunun aparat rəhbəri Faiq Qürbətov və digər rəsmilər iştirak ediblər. Azərbaycan Tibb Universiteti bu toplantıda geniş tərkibli müəllim-tələbə heyəti ilə təmsil olunub.

Tədbir populyar incəsənət xadimlərinin iştirakı ilə böyük konsert proqramı və diskoteka ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycanda 1997-ci ildən etibarən 2 Fevral – Gənclər Günü kimi qeyd edilir. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk olaraq Azərbaycanda həmin tarix rəsmi bayram kimi təsbitlənib. Yalnız 1999-cu ildə BMT-nın qərarı ilə avqustun 12-si "Ümumdünya Gənclər Günü" kimi elan edilib.

Prezident İlham Əliyevin başçılığı ilə bu gün respublikamızda gənclərin keyfiyyətli təhsili, bilik və peşəkarlıqlarının artırılması, onların sosial problemlərinin həlli istiqamətində böyük işlər görülür. 2011-ci ildə dövlət başçısının Sərəncamı ilə «Azərbaycan Gəncliyi Dövlət Proqramı» təsdiq olunub, Gənclər Fondu yaradılıb. Gənclərin sosial problemlərinin həlli istiqamətində mühüm işlər həyata keçirilir.

**ATU-nun mətbuat xidməti**

# Tanınmış həkim Zemfira Topçubaşovanın anadan olmasının 90 illiyinə həsr edilmiş konfrans keçirilib



- **Fevralın 14-də Azərbaycan Tibb Universitetində tanınmış həkim, qayğıkeş müəllim, bacarıqlı səhiyyə təşkilatçısı Zemfira Topçubaşovanın anadan olmasının 90 illiyinə həsr edilmiş konfrans keçirilib.**

ATU-nun müalicə-profilaktika fakültəsinin I mamalıq və ginekologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru, əməkdar müəllim, prezident təqaüdçüsü Zemfira Topçubaşovanın ad gününə həsr edilmiş konfrans ATU-nun Tədris Cərrahiyyə Klinikasında baş tutub.



ATU-nun rektoru, professor Gəray Gəraybəyli tədbiri açaraq, Zemfira xanımı yubileyi münasibətilə təbrik edib, ona uzun ömür, can sağlığı diləyib: "Baxmayaraq ki, tələbəlik illərimdən 30 ilə yaxın vaxt keçib, Zemfira xanımın auditoriyada səsləndirdiyi özünəməxsus mühazirələri, hər bir tələbəyə xüsusi qayğı ilə yanaşması hələ də yaddaşımdadır. Minlərlə ailə Zemfira xanıma çox böyük minnətdarlıq hissi ilə yaşayırlar". Z.Topçubaşovanı "Azərbaycan səhiyyəsinin Qızıl Fondunun canlı nümayəndəsi" adlandıran rektor yubilyarı ATU-nun fəxri diplomu ilə təltif edib.

ATU-nun I mamalıq və ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva məruzəsində əməkdar müəllim, görkəmli ictimai xadim, səriştəli alim və səhiyyə təşkilatçısı Zemfira Topçubaşovanın həyatı, elmi-pedaqoji, praktiki həkimlik fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Daha sonra Azərbaycan



Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova çıxış edərək, yubilyar haqqında ürək sözlərini söyləyib: "Zemfira xanım dostluğu ilə fəxr etdiyimiz insanlardan biridir. Dahi insanlar çoxdur, amma şəxsiyyət dediyimiz insanlar azdır və Zemfira Topçubaşova onlardan biridir".

Tədbirdə, həmçinin akademiklərdən Adilə Namazova və Böyükkişi Ağayev, Səhiyyə Nazirliyinin baş mama-ginekoloqu Sevinc Məmmədova, professor Hicran Bağırova, "Caspian Plaza" xəstəxanasının baş həkimi Nigar Axundova və digərləri yubilyar haqqında xoş sözlər səsləndiriblər.

Sonda Zemfira Topçubaşova konfransda iştirak edən hər kəsə təşəkkürünü bildirib: "Hər birinizə minnətdaram ki, məni unutmamısınız. Mən indi də telefon vasitəsilə cərrahiyyə əməliyyatlarına kömək edirəm. Çox sevinirəm ki, mən hələ də tibb sahəsinə lazımam. Həmişə də məndən sonra gələnlərə kömək etməyə çalışmışam".

# ELMİ ŞURANIN QƏRARLARI HƏYATA KEÇİRİLİR

◆ **Fevralın 1-də Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsi Rəyasət Heyətinin yığıncağı keçirilib. Yığıncağı Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**



Tibbi-profilaktika fakültəsinin həmkarlar təşkilatının sədri, dosent Sahib Əhmədov tibbi biologiya və genetika, histologiya, embriologiya və sitologiya, tibbi fizika və informatika, bioloji kimya, biofiziki və bioüzvi kimya, normal fiziologiya, ictimai fənlər, ictimai sağlamlıq və səhiyyənin təşkili kafedralarında "Əməkdaşların əmək və nizam-intizamının pozulması haqqında" tərtib edilən arayışla bağlı ətraflı məlumat verib. O, ATU-nun kafedralarında əməkdaşların işə davamiyyətinin yoxlanılması haqqında tərtib edilmiş



arayışların və işdə olmayanların izahatlarının komissiya tərəfindən araşdırıldığını bildirib, yoxlamanın nəticələrini, konkret olaraq əmək intizamını pozan əməkdaşların siyahısını, hər əməkdaşın ayrı-ayrılıqda izahatını açıqlayıb.

Adları işə gəlməyənlərin siyahısında olan əməkdaşların fikirləri də dinlənilib, müzakirələr aparılıb.

İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev, tibbi bioloji kimya kafedrasının müdiri, professor Canbaxış Nəcəfov, histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov, ETM-nin direktoru, professor Qalib Qarayev, dosent Əlibaxış Kəlbiyev, epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, II müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli və tibbi profilaktika fakültəsinin dekanı, dosent Aydın Məmmədov çıxış edərək bu cür yoxlamaların nizam-intizamı möhkəmləndirmək baxımından əhəmiyyətini xüsusi vurğulayıblar. Humanizm prinsiplərini əsas götürərək ilk yoxlamanın nəticələrinə görə əməkdaşlara verilən cəzanın yüngülləşdirilməsini təklif ediblər.

Cahangir Qasımov bu məsələnin rektorun nəzarətində olduğunu bildirərək yoxlamaların bundan sonra da müntəzəm aparılacağını, heç kəsə güzəşt edilməyəcəyini deyib.

Sonda çıxışları və təklifləri, nizam-intizamı pozan əməkdaşların etiraflarını nəzərə alan Həmkarlar İttifaqı Komitəsinin üzvləri əmək məcəlləsinin 186-cı maddəsinin 3-cü bəndini pozan əməkdaşlara xəbərdarlıq elan olunmasına razılıq verməklə kifayətləniblər.

Qeyd edək ki, yuxarıda adları çəkilən 8 kafedradan 55 nəfər haqqında inzibati tədbir görülüb.

Yığıncaqda universitetin ümumi işlər üzrə prorektoru, dosent Natiq Xəlilov və rektorun müşaviri, dosent Zülfüqar Musabəyov iştirak ediblər.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Tədris Cərrahiyyə Klinikasında nadir əməliyyat aparılıb

- **ATU-nun Tədris Cərrahiyyə Klinikasında nadir rast gəlinən xəstəliklə bağlı əməliyyat aparılıb. Klinikaya gətirilən körpədə qalça bağırsağın funksional hissəsi anadangəlmə qapalı olub. İleol atreziyası (tip 3a), atreziyaya uğramış distal hissənin göbəkdən fistula formasında xaricə çıxması, obliterasiya olunmamış uraxus ilə doğulan körpə üzərində əməliyyat icra olunub.**



Həkim mama-ginekoloq, t.e.f.d. Arzu İsmayılovanın sözlərinə görə, hamiləlik zamanı ultrasəs müayinəsi zamanı körpədə bağırsaq keçirməzliyi ilə bağlı müəyyən şübhələr yaranıb. Buna görə də doğuşdan dərhal sonra qarın boşluğunun rentgenoqrafiyası aparılıb və bağırsaq keçirməzliyi diaqnozu təsdiqlənib.

Uşaq cərrahları dosent Ramiz Poluxov və Ramin Bayramov tərəfindən aparılan əməliyyat uğurla nəticələnib. Qalça bağırsağın terminal hissəsi, kor bağırsaq rezeksiya olunaraq ileoascendo anastomoz qoyulub.

Əməliyyatdan sonra körpə sağ-salamat evə yola salınıb. Xəstənin ailəsi klinikanın həkimlərinə, xüsusilə neonatoloq Səadət Yaqubovaya dərin təşəkkürlərini bildirirlər.

**ATU-nun mətbuat xidməti**

**Azərbaycan Tibb Universitetində dekabrın 29-da başlanan qış imtahan sessiyası fevralın 1-də başa çatıb. İmtahanların necə keçməsi ilə bağlı Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayramovla əlaqə saxladıq.**

# SEMESTR İMTAHANLARINDA YENİ METOD TƏTBİQ OLUNUB

## Keçirilən imtahanlarda 7 minə yaxın tələbə iştirak edib

Onun sözlərinə görə, bu semestr imtahanları iki proqram üzrə həyata keçib: "MODLE adlanan sistem ilk dəfə I kursda oxuyan tələbələrə tətbiq olundu. Bu sistemin əvvəlki sistemdən fərqi ondan ibarətdir ki, imtahan zamanı tələbəyə 25 sual düşür. Hər sual 2 balla qiymətləndirilir. Amma düşən suallardan 20 faizi test bankına salınmadığı üçün tələbələr onu test bankında görə bilmir. Yəni tələbələrə düşən 25 sualdan 5-i test bankına salınmadığı üçün onlar əvvəlcədən hansı sualların düşəcəyindən xəbərsizdirlər. Bu sistemi tərbiq etməkdə məqsəd ondan ibarətdir ki, tələbələr əzbərçiliyi özlərinə vərdiş etməsin, onlar gündəlik dərslərinə hazırlaşsınlar,"-deyən Ş.Bayramov yaddaşına söykənərək əzbərçilyi özünə vərdiş etmiş tələbələrin maksumum 40 bal toplamaq imkanına malik olduğunu qeyd etdi. Bu sistemin başqa özəllikləri barədə də məlumat verən mərkəz rəhbəri bildirdi ki, imtahan zamanı tələbələrə düşən 5 sual çoxcavablı suallardır: "Yəni hər bir sualın bir neçə doğru cavabı var. Əgər tələbə bu sulların cavablarından birini səhv etsə, nəticə sıfır hesab olunur. Və yaxud iki doğru cavabdan tələbə 1-ni seçirsə, o, bu zaman bir bal alır."



Sözünə davam edən Ş.Bayramov bu proqram üzrə 1117 tələbənin imtahan verdiyini bildirdi. O, yeni proqram tətbiqinin imtahanların nəticəsinə də təsir etdiyini diqqətimizə çatdırdı. Ağır hesab edilən imtahanlardan yüksək bal toplayan tələbələrin sayında azalma olduğunu, keçən ilə nisbətən az kəsir sayı olduğunu bildirərək bu sistemin getdikcə daha da təkmilləşdiriləcəyini söylədi.

Qış imtahan sessiyasının yekunlarını şərh edən Şahin müəllim imtahan prosesi zamanı heç bir qeyri-adi hadisə baş vermədiyini bildirdi: " Bu semestrdə 45 minə yaxın imtahan keçirildi. Bu imtahanlarda 7 min civarında tələbə iştirak etdi, imtahan prosesi ilə bağlı heç bir irad olmadı. Doğrudur, suallarla bağlı appelyasiya şikayətləri edildi. Bu zaman texniki qüsurlar ortaya çıxdı və araşdırma aparıldı. Tələbənin haqlı şikayətləri nəzərə alındı və çatışmazlıq aradan qaldırıldı."

Üzürlü səbəbdən imtahanlarda iştirak etməyənlər üçün fevralın 2-3-ü və 12-15-i arası imtahanların keçirildiyini bildirən mərkəzin rəhbəri bu imtahan prosesində də heç bir qeyri-adi hadisənin qeydə alınmadığını bildirdi.

**Qabil ABDULLAYEV**

- **Azərbaycan Tibb Universitetinin 2017-ci tədris ili üçün Mülki Müdafiə tədbirləri planına müvafiq olaraq hörmətli rektorumuz, professor G.Gəraybəylinin əmrinə uyğun olaraq ATU-nun I qrup Mülki Müdafiə qüvvələrinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqi keçirilmişdir.**

Məşqə rəhbərlik ATU-nun Mülki Müdafiə Qərargahının rəisi F.Məmmədova həvalə edilmişdir.



# MÜLKI MÜDAFİƏ MƏŞQİ

Məşqə MM qüvvələrinin ümumi komandiri-təsərrüfat-təchizat şöbəsinin rəisi E.Əlizadənin rəhbərliyi ilə rabitə və xəbərdarlıq, mühəndis-kəşfiyyat, xilasedicilər, yanğınsöndürənlər, sanitar manqaları və mühafizə qurğularına xidmət, qəza-bərpa, radiasiya və kimya müşahidəsi, ictimai asayişi mühafizə dəstələrinin şəxsi heyəti cəlb olunmuşlar.




Məşqə ATU-nun Fövqəladə Hallar Komissiyasının sədri, təsərrüfat işləri üzrə prorektor Aydın Vəliyev, Nəsimi rayon Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin rəisi, mayor Musa Məhərrəmov və rəis müavini Rəfail Musayev dəvət olunmuşlar.

Məşqin keçirilməsində məqsəd xəbərdarlıq sisteminin vəziyyətinin yoxlanılması və MM qüvvələrinin şəxsi heyətinə xəbərdarlıq və toplanış üzrə vərdişlərin aşılanması olmuşdur.

Hazırlıq mərhələsində məşqin təşkili və keçirilməsi haqqında obyekt rəhbərinin əmri verilmiş, məşqin keçirilmə planı tərtib olunmuş, MM qüvvələrinin şəxsi heyətinin xəbərdarlıq sxemi dəqiqləşdirilmiş, rabitə vasitələrinin vəziyyətinə baxış keçirilmiş və məşqin keçirilməsi ilə bağlı digər təşkilati tədbirlər görülmüşdür. Məşq iştirakçıları ilə metodiki toplantı keçirilmişdir.

Məşq 13 fevral 2017-ci il tarixində saat 11:00-da məşq rəhbərinin MM qüvvələrinin toplanması barədə göstərişi ilə başlanmış və qüvvələrin şəxsi heyəti saat 11:35 dəqiqədə 4 saylı tədris binasının akt zalında toplanmışlar. MM qüvvələrinin 106 nəfərindən 81 nəfəri toplanış yerinə gəlmişlər. MM qüvvələrinin şəxsi heyətlə komplektləşdirilməsi, tabel əmlakı ilə təchizatı və qoyulmuş tapşırıqlar üzrə nəzəri bilikləri yoxlanılmışdır. Məşq rəhbərinin 13 fevral 2017-ci il saat 13:00-da xəbərdarlıq və toplanış məşqinin başa çatması barəsində göstərişindən sonra məşqin nəticələri təhlil olunmuşdur. Aşkar olunmuş nöqsanların aradan qaldırılması barədə müvafiq göstərişlər verilmişdir.

Məşq zamanı qarşıya qoyulmuş məqsədə ümumilikdə nail olunmuşdur.

**Fəridə MİRZƏYEVA,**
*MMQ-nin məsul katibi*

- **15 Fevral - Beynəlxalq Uşaq Xərçəng Xəstəlikləri ilə Mübarizə Günüdür**

AZƏRTAC xəbər verir ki, bu gün bütün insanları xərçəng xəstəliyindən əziyyət çəkən uşaqlara və onların ailələrinə mənəvi dəstək olmağa çağırır və bu xəstəliklər haqqında əhalinin maarifləndirilməsində böyük rol oynayır. Bundan əlavə 15 Fevral dünya ictimaiyyətinin onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlara diqqətini artırır və onların problemlərini həll etməyə səsləyir.

# 15 Fevral - Beynəlxalq Uşaq Xərçəng Xəstəlikləri ilə Mübarizə Günüdür

Bütün xəstəliklərdə olduğu kimi xərçəngdən əziyyət çəkən uşaqların da problemləri onların valideynləri ilə yanaşı dövlətin, səhiyyənin, qeyri-dövlət qurumlarının və bütün cəmiyyətin daima diqqət mərkəzində olmalıdır.

Uşaqlarda olan onkoloji xəstəliklər bütün bədxassəli şişlərin 1-1.5 faizini təşkil edir. Uşaqlarda təsadüf olunan onkoloji xəstəliklər böyüklərə nisbətən çox fərqlidir və onların əsas hissəsini embrional şişlər təşkil edir. Bunların içində leykemiyalar daha tez-tez rast gələnən xərçəngin növüdür.

Mərkəzi sinir sisteminin şişləri və limfomalar da uşaqlarda daha çox yayılan xəstəliklərdir. Digər bədxassəli şişlər məhz, nefroblastoma, neyrolastoma, rabdomiosarkoma isə hər biri ayrılıqda altı-yeddi faiz təşkil edir. Böyüklərdə təsadüf edən mədə -bağırsaq, ağciyər, süd vəzi xərçəngi uşaqlarda çox nadir hallarda rast gəlinir. Müasir müalicə metodları uşaq onkologiyasında daha yaxşı nəticə verir və uşaqların böyük əksəriyyətində tam sağalma mümkündür.

2012- ci ildə Milli Onkologiya Mərkəzinin nəzdində respublikada ilk dəfə Uşaq Onkoloji Klinikası fəaliyyətə başlayıb. Hazırda bu klinika regionumuzda onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlara ixtisaslaşmış, yüksək texnologiyalarla təchiz olunmuş keyfiyyətli tibbi yardım göstərən yeganə tibb müəssisəsidir. Klinikada beynəlxalq protokollara uyğun olaraq, çox komponentli müalicənin bütün növləri icra edilir. Klinikada ambulator və poliklinik şöbə, kimya terapiyası, cərrahiyyə, anesteziologiya-reanimatoloji və şüa terapiyası şöbələri fəaliyyət göstərir. Mərkəzdə 19 həkim və 40 tibb bacısı çalışır.

Bu müasir müalicə ocağının yaradılmasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın və Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əliyevin böyük əməyi var.

Qeyd edək ki, bu gün eyni zamanda, dünyada xərçəng xəstəliyinə qalib gəlmiş uşaqların qəhrəmanlığını, həmçinin valideynlərinin və onlara qayğı göstərən tibb personalının fədakarlığını əks etdirir.

4 fevral – Dünya Xərçənglə Mübarizə Günüdür

**Bədxassəli şişləri xarakterizə edən əlamətlər xəstəliyin gec dövründə ortaya çıxır. Bu da xəstəliyin ilkin mərhələdə aşkarlanmasını gecikdirir. Belə olan təqdirdə bəşəriyyətin ən qorxulu xəstəliklərindən biri sayılan xərçəngə qarşı necə mübarizə aparılmalıdır? Hansı əlamətlərdən şübhələnib həkimə getmək lazımdır? Xərçəng – mütləq ölüm deməkdirmi?**



# ATU-nun Onkoloji Klinikasının baş həkimi: 37 il əvvəl əməliyyat olunan xərçəng xəstəsi hələ də müayinəyə gəlir

Bu və digər sualları 4 fevral – Dünya Xərçənglə Mübarizə Günündə Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının baş həkimi, dosent Nəsimi Qasımov cavablandırıb.

N.Qasımov bildirib: "Dünya əhalisində bədxassəli şişə yoluxanların sayı hər il artır. Bədxassəli şişlərin belə geniş yayılması müasir həyatın texniki cəhətdən zənginləşməsi, sosial həyatın yaxşılaşması, istehsalın artması ilə əlaqədardır. Belə ki, artıq ətraf mühitin çirklənməsi bizdən asılı olmayaraq hər il artır. Sənayeni nə qədər əhalinin yaşayış sahəsindən kənara aparsaq da, bu, mümkün deyil. Məsələn, avtomobilsiz yaşamaq mümkün deyil. Hər bir avtomobil də kanserogen maddə olan üç-dörd benzipiril atmosferə buraxır. İnsanların böyük əksəriyyəti siqaret çəkir, bu da ağciyər xərçəngini yaradan amillərdən biridir. Qadınlarımız normal doğuşla nəticələnən hamiləliklərin sayını kifayət qədər azaldıblar. Əgər əvvəl ailədə uşaq sayı beş-yeddi idisə, indi bu uşaqların sayı bir-ikidir. Qidalanma faktorunu da qeyd etmək lazımdı. Ət və ət məhsullarının qəbulu gündəlik rasionda kifayət qədər artıb, süd məhsulları, meyvə-tərəvəz qəbulu olduqca azalıb. Bütün bunların da xəstəliyin artmasına təsiri olur.

Ölkəmizdə ən çox süd vəzisi, ağciyər və mədə xərçəngi xəstəsi qeydə alınıb və bu dünya göstəriciləri ilə təqribən üst-üstə düşür. Klinikamıza müraciət edən xəstələrin də əksəriyyəti əsasən bu üç növ xərçəngdən əziyyət çəkir. Lakin onlar arasında onkoginekolojiyönümlü müraciətlər üstünlük təşkil edir. İl ərzində orta hesabla xəstəxanamıza on minə qədər bədxassəli şişlə müraciət edir. Bunların böyük əksəriyyəti kimyəvi dərman terapiyası alır. Ötən ilin hesabatına əsasən 2600-ə qədər xəstə əməliyyat olunub.



Xəstəliyin simptomlarına gəldikdə isə bədxassəli şişləri xarakterizə edən simptomlar onların gec dövrünə təsadüf edir. İlkin dövrdə hər orqana xas olan simptomlara bəzən rast gəlinir. Əgər söhbət süd vəzisindən gedirsə, hər bir qadın özünü müayinə etdirməlidir. Mədə-bağırsaqda insanlar narahatlıq hiss etdikdə yubanmadan həkimə müraciət etməlidirlər. Nəcis, sidik və ya bəlğəmdə qan olarsa, bu da şübhə doğuran amillərdəndir. Ümumiyyətlə, insanlar özlərinə diqqət yetirməlidirlər. Xəstəliyi tez aşkar edə bilmək üçün yaşı 35-i keçmiş hər kəs ildə bir dəfə tam müayinə olunmalıdır. Bunun üçün həm ATU-nun Onkoloji Klinikası, həm də Milli Onkologiya Mərkəzində hər bir şərait var. Klinikaya gəlməyə vaxtı olmayanlar yaxınlıqda yerləşən poliklinikalara müraciət edib, ağciyərlərin rentgenini və ya süd vəzilərini müayinə edə bilərlər.

Hər bir xəstəlik kimi xərçəng də mütləq ölümlə nəticələnmir. 1979-cu ildə, yəni 37 il əvvəl əməliyyat etdiyim xəstə hələ də müayinəyə gəlir və belə insanlar indi müalicə etdiyimiz xəstələri ruhlandırır".

9 fevral – Beynəlxalq Stomatoloqlar Günüdür

# Həkim-stomatoloq: "Uşaqlarda ən çox yayılmış xəstəlik diş-çənə anomaliyalarıdır"

**Son illər dünyada tibbi texnikanın inkişaf etməsinə baxmayaraq, diş xəstəliklərinin qarşısını almaq mümkün deyil. Elə ölkəmizdə də yeni diş xəstəliklərinin çoxaldığı müşahidə olunur. Azərbaycan Tibb Universitetinin ortopedik stomatologiya kafedrasının müdiri, tibb üzrə elmlər doktoru, həkim-stomatoloq Nazim Pənahovla müsahibəmiz zamanı bu məsələyə də aydınlıq gətirməyə çalışdıq.**



**- Son zamanlar xəstələr sizə ən çox hansı şikayətlərlə müraciət edirlər?**

- Diş ağrıları qaçılmazdır. Xəstələr müxtəlif ağrı və problemlərlə bizə müraciətlər edirlər. Bizim şöbə ortopedik stomatologiyadır və əsasən, çəkilmiş, dağılmış dişlərin yerinin bərpası ilə məşğul oluruq. Bizim şöbə - bərpa, protezləmə, konstruksiya ilə dişlərin bərpasına qulluq edir. Məsələn, elə xəstəmiz də olur ki, ona implant qoyulur, 3-6 aydan sonra düzəlir. Yəni bizim müalicələr 1 gündən 6 aya qədər davam edə bilər, bu əlbəttə ki, patologiyadan asılıdır.

**- Uşaqlarda ən çox hansı diş xəstəlikləri yayılıb?**

- Uşaqlarda ən çox yayılmış xəstəlik diş-çənə anomaliyalarıdır. Təxminən 100 uşaqdan yetmişində, 3 uşaqdan ikisində buna rast gəlinir. Bu, bütün dünyada yayılmış prosesdir. Buna səbəb ekologiya, qida xarakterinin dəyişilməsi, yumşaq qidalara üstünlük verilməsi, hamiləliyin problemli keçməsi və s. kimi məsələlərdir ki, əvvəl-axır uşaqda diş-çənə anomaliyasına gətirib çıxarır. Süd dişlərinin vaxtından öncə çəkilməsi də buna səbəb olur. Vaxtında müraciət olunarsa, 100 faiz bərpa edilir, lakin gec müraciət olunarsa, bərpa faizi aşağı düşür.

**- Dişdə sarılıq xəstəliyinin yaranmasına nə səbəb olur?**

- Necə ki, insanın rəngi doğuşdan olur, eləcə də dişin rəngi anadangəlmə olur. Yəni, bəzi insanlar doğulanda dişlərinin rəngi sarı olur. Amma müəyyən xəstəliklər nəticəsində də dişin rənginin dəyişməsi baş verə bilir. İçməli suda flüorun miqdarının çox olması, siqaret çəkmək və s. zamanı diş ərpi yaranır. Bunlar da dişin rənginin dəyişməsi ilə nəticələnir. Qeyd edim ki, rəng probleminin həlli bu gün stomatoloqlar üçün çox asan bir prosesdir.

**- Bəs damaq qaşınması nədən yaranır?**

- Əgər çəkilmiş diş varsa, həmin dişin yeri qaşınarsa, ola bilər ki, həmin yerdə alveolit deyilən proses gedir. Çıxarılmış dişin yeri tam sağalmayıb, nəticədə sağalma prosesi getdikcə qaşınma olur. Qaşınma deyilən hissiyat əslində subyektiv hissiyatdır. Damaq xəstəliyi kimi hesab edilmir.

**- Fəaliyyətiniz dövründə hər hansı bir çətin patologiya ilə rastlaşmısınızmı?**

- Çətin patologiya cavan yaşlardan dişlərin itirilməsi –deformasiya olmasıdır. Bunun bərpası artıq çətin proses hesab olunur. Yəni, belə halda tək ortoped deyil, terapevt də qoşulur müalicəyə, bəzən bu 1 il çəkir.

**- Sağlam dişlərə malik olmaq üçün oxucularımıza nə məsləhət verərdiniz?**

- İlk olaraq əlbəttə ki, gigiyenaya diqqət etsinlər. Mütəmadi olaraq diş yuyulmalıdır. Dövrü olaraq ildə 2 dəfə diş müayinəsindən keçsinlər, həkimə müraciət etsinlər.

Qeyd edim ki, bizim baza ATU-nun Stomatoloji Klinikasında yerləşir. 57 nəfərdən ibarət işçi kollektivimiz var. Stomatoloji kafedralar içində ən böyüyü ortopedik stomatologiya kafedrasıdır. Diş xəstəliyi ilə üzləşən hər kəs bizə müraciət edə bilər. Yeri gəlmişkən, bu gün Beynəlxalq Stomatoloqlar Günüdür. Fürsətdən istifadə edib həm həmkarlarımı, həm də tələbələrimizi təbrik edirəm.

**Günel ASLANOVA**

# Ümumdünya Xərçəng Günü ilə bağlı vətəndaşların onkoloji xəstəliklərə dair sualları cavablandırılıb

- **Fevralın 4-də paytaxtın "Gənclik Mall" və "Park Bulvar" ticarət mərkəzlərində Ümumdünya Xərçəng Günü ilə bağlı tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirin keçirilməsində əsas məqsəd əhalinin xərçəng xəstəlikləri, onların profilaktikası, diaqnostikası və müalicəsi sahəsində əhalinin məlumatlılığını artırmaqdır.

Tədbirdə xərçəng şişinin erkən mərhələdə aşkar edildikdə müvəffəqiyyətlə müalicə olunduğu deyən Milli Onkologiya Mərkəzinin (MOM) baş həkimi, Azərbaycan Səhiyyə Nazirliyinin baş onkoloqu Azad Kərimli dünyada bütün xəstəliklərdə olduğu kimi, xərçəng xəstəliyində də artım müşahidə edildiyini bildirib. Qeyd olunub ki, qonşu ölkələrin statistik məlumatları ilə müqayisədə ölkəmizdə bu xəstəliyə tutulanların sayı bir o qədər də çox deyil. Ekologiya problemləri, qida rejimi, yeyinti məhsullarının keyfiyyəti, yeni texnologiyaların tətbiqi ilə əlaqədar şüalanma və radiasiya səviyyəsinin çoxalması onkoloji xəstələrin sayının artmasında əsas rol oynayır. Bu xəstəlikdən qorunmaq üçün ildə bir dəfə həkim müayinəsindən keçmək lazımdır.

Tədbir çərçivəsində İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının tələbələri vətəndaşlara maarifləndirici bukletlər paylayıblar.

Sonra tədbirdə vətəndaşların sualları cavablandırılıb.

Qeyd edək ki, Ümumdünya Xərçəng Günü 2005-ci ildə Xərçəng Əleyhinə Beynəlxalq İttifaq tərəfindən təsis edilib. Əsas məqsəd dünya ölkələrinin diqqətini bu qlobal problemə yönəltmək, onun nə dərəcədə təhlükəli olduğunu və mübarizənin yalnız birlikdə aparıldıqda effektiv olmasını bir daha dünya ictimaiyyətinə xatırlatmaqdır.

Qan yaddaşımız

# Xocalı faciəsi XX əsrin ən böyük soyqırımıdır

**◆ Ölkənin qədim tarixə malik ərazilərindən biri Xocalıdır. O, Ağdam-Şuşa, Xankəndi-Əsgəran yolları üzərində yerləşib və Qarabağda mühüm strateji əhəmiyyəti olan yerdir. Soyqırıma qədər oranın əhalisi 7 min nəfərdən çox idi. Orta Asiyadan gəlmiş Məhsəti türkləri və Ermənistandan ermənilər tərəfindən qovulmuş azərbaycanlılardan da ora sığınanlar var idi. Faciədən əvvəl Xocalıya şəhər statusu da verilmişdi və orta məktəbi, mədəniyyət evi, kitabxanası, xəstəxanası, bəzi orta-ixtisas, ali məktəblərin filialları vardı.**




Ermənilərin təbliğatını müəyyən edən siyasət uzun illərdən bəri idi ki, gizli olaraq belə hadisəyə doğru gəlməkdə idi. 80-ci illərin sonlarında isə bu gizlinlər açıq müstəviyə keçdi və nəticə etibarı ilə XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımını tarixin yaddaşına qanlı sətirlərlə həkk etdi.

Xocalı təsadüfən seçilməmişdi. Bura ermənilər üçün yalnız azərbaycanlıların yaşayış məntəqəsindən başqa, qeyd etdiyimiz kimi strateji cəhətdən çox mühüm idi. Ona görə ki, bu şəhər Əsgəran qalası ilə Xankəndinin arasında yerləşməklə dəmir yolu və aeroporta da malik idi. Ermənilər əvvəlcə Xocalının mərkəzlə əlaqəsinin kəsilməsinə çalışırdılar. Avtomobil əlaqəsi 1991-ci ilin oktyabrında kəsildi. 2 yanvar 1992-ci il tarixdən isə şəhərin elektrik təminatı da dayandırıldı.

Əhali müharibə elan edilmədiyi halda Xocalıda müharibə şəraitində yaşayırdı və yaşayış məntəqsinin fevralın 13-dən etibarən xarici aləmlə əlaqəsi tamam kəsilmişdi. Xocalını dünya ilə birləşdirən hava xəttinin nə qədər davam edəcəyi ermənilərdən asılı idi və əvvəlcədən onu da planlaşdırmışdılar.

Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşanın səmasında mülki vertolyotun vurulması və nəticədə 41 nəfərin faciəli surətdə həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Azərbaycan səlahiyyətliləri müxtəlif səbəblərlə əlaqədar mühasirədə olan Xocalıya yol açı bilmədilər. Son olaraq ermənilər yanvarın 29-da Xocalıdan vertolyot uçmasının da qarşısını ala bildi. Bundan sonra Xocalının mühasirəsini daha da daraltdılar.

1992-ci il fevralın ortalarında ermənilər Qaradağlı kəndinə güclü hücuma başladı. Qanlı döyüşlərdə kənd dəfələrlə əldən-ələ keçdi. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra ermənilər Qaradağlını ələ keçirib onun 92 müdafiəçisini, 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar.

Məhz ona görə də Xocalıya hücum əməliyyatına çox böyük hərbi qüvvə və texnika cəlb etmişdilər. Xocalıya hücum əməliyyatına başlamaq üçün erməni hərbi hissələri ilə yanaşı, xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar, zabit heyətinin uçdə iki hissəsi ermənilərdən ibarət olan Rusiyanın Xankəndində yerləşən 366-cı motoatıcı alayı da hazır vəziyyətə gətirilmişdi.

1988-ci il sentyabrın 18-də ermənilərin Xocalıya daha irimiqyaslı hücumları oldu. Elə həmin gün Xankəndindəki nümayişdən çıxan 5000-ə qədər ermənininin bir qismi piyada, bir qismi maşınlarla Xocalıya hücum etdilər. Hərəkət edən “Kamaz” və “Kraz” markalı maşınların arxasınca gələn ermənilər şəhərə yaxınlaşdılar. Hücumdan xəbər tutan Xocalının 150 cəsur oğlu onların qarşısına çıxdı. Qeyri-bərabər döyüşdə 27 erməni öldürüldü, 100-ə qədəri isə yaralandı. Bu, ermənilərə vurulan güclü zərbə idi.

Xocalılar vəziyyətin getdikcə gərginləşdiyini görüb dəfələrlə məlumat versələr də mərkəzdən heç bir köməklik ala bilmədilər. Bakıda hakimiyyət uğrunda dartışmalar davam etdiyi bir vaxtda Xocalı səmasında qara buludlar günbəgün, saatbasaat sıxlaşırdı. Heç bir yerdən kömək ala bilməyən şəhər əhli könüllü müdafiə dəstələri yaratmağa başladılar. Həmin dövrdə Xocalının müdafiə qüvvələrinin ixtiyarında çox az sayda avtomat, bir top, iki “Alazan” tipli raket qurğusu var idi. Ermənilərin isə ətraf kəndlərdə-Daşbulaq, Mehdikənd, Ballıca, Pirəməkli və Mirzəcanda 515 canlı qüvvəsi, 3 “Alazan” raketi, 10 zirehli transpartyoru, 3 PDM-i və bir neçə tankı var idi.

1992-ci ilin yanvarında Paris yaxınlığında məxfi təlim düşərgəsi yaratmış “ASALA” erməni terrorçu təşkilatının 26 üzvü Xankəndinə gəldilər. Digər ölkələrdən də terrorçu quldur dəstələri cəlb olunmuşdu. Bütün bunlardan aydın görünür ki, faciə ərəfəsində ermənilər istər canlı qüvvə, istərsə də hərbi texnika və silah cəhətdən xocalılardan üstün olub. Buna baxmayaraq ermənilər Xocalıya birbaşa hücumdan ehtiyat edirdilər.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə tarixdə ən böyük faciələrdən biri–Xocalı soyqırımı baş verdi. Həmin gecə ermənilər üç istiqamətdən şəhərə hücum etdilər. Xocalıya hücumda Ermənistan Respublikası Silahlı Qüvvələrinin tabeliyində olan qruplar, muzdlu əsgərlər, özünü “Arsak” ordusu adlandıran Dağlıq Qarabağın erməni bölmələri və 366-cı Rusiya hərbi alayı iştirak etmişdi.

Fevralın 25-də gecə 23-00 dan şəhər toplardan atəşə tutuldu. İlk növbədə şəhərdə yerləşən kazarma, müdafiə nöqtələri dağıdıldı. Hücum başladıqdan dərhal sonra əhalinin bir hissəsi Ağdam istiqamətinə hərəkət edərək Xocalını tərk etməyə başladılar. Mülki əhalinin əksər hissəsi şəhəri tərk etdi, təxminən 300 nəfər öz evlərində və zirzəmilərdə gizləndi. Şəhərin bombalanması zamanı onların da əksəriyyəti öldürüldü. Ermənilərin məlumatına görə, mülki əhalinin şəhərdən çıxması üçün Ağdama doğru “Azad dəhliz” saxlanılmışdı. Əgər belə bir şey var idisə, əhaliyə heç bir xəbərdarlıq edilməmişdi.

Azərbaycanın Ağdam rayonunun yaxınlığında “Azad dəhliz”lə hərəkət edərkən bu insanlara erməni faşistləri tərəfindən atəş açıldı və nəticədə onların çox hissəsi öldürüldü. Sağ qalan qaçqınlar dağınıq düşdü. Xilas olmağa çalışanlar erməni postlarına dirəndilər və orada atəşə məruz qaldılar. Yalnız qaçqınların bir hissəsi Ağdama çata bildi; bəziləri, əsasən qadın və uşaqlar (dəqiq sayını müəyyən etmək mümkün deyil) dağlarda hərəkət edərkən donaraq öldülər. Ağdama çata bilənlərin ifadələrinə görə, bəziləri Pircamal və Naxçıvanik kəndlərində ermənilər tərəfindən əsir götürüldülər. Dəyişdirilən Xocalı sakinlərinin ifadələrinə görə, əsr götürülənlərin xeyli hissəsi qətlə yetirilmişdi.

Bu dəhşətli gecədə dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla və işgəncə verilməklə öldürülmüş, 76-sı uşaq olmaqla 487 nəfərə ağır bədən xəsarəti yetirilmiş, 1275 sakin-uşaqlar, qadınlar və qocalar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qalmışdılar. Onlardan 150 nəfər itkin düşmüşdü. Sonradan əsr götürülənlərdən yalnız 1165 nəfərini geri almaq mümkün olmuşdu. Bu qətliam zamanı səkkiz ailə tamailə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 224 uşaq bir valideynini itirmişdi. Bundan başqa 230 ailə öz başçısını itirmişdi. 200 nəfərin ayaqları soyuqdan qanqrena olmuşdu. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil.

Xocalı faciəsi gizlində deyil, dünyanın gözləri qarşısında həyata keçirilmişdi. Qətliamdan sonra Qərbin televiziya jurnalistləri hadisə yerinə gətmək istədikdə erməni silahlıları tərəfindən qarşısı alınmışdı. Bu fakt dünya mətbuatında verilməsinə baxmayaraq erməniləri dəstəkləyən qüvvələr ona o qədər də əhəmiyyət verməsdilər. Amma Qərbin telejurnalistləri bir sıra yerlərdə, o cümlədən Xocalının ətrafında qətl edilənləri görmüş və onları lentə ala bilmişdilər. Onlar 50-yə qədər eybəcərləşdirilmiş cəsədi çəkmişdilər.

Ermənilərin azərbaycanlılara qarşı növbəti soyqırımının hələ o zaman tarixləşdirilməsində və dünyaya çatdırılmasında Azərbaycan televiziyasının müxbiri Cingiz Mustafayev əsas rol oynamışdı. Cəlladların mane olmasına baxmayaraq o, həyatını riskə ataraq xocalıların qırğına məruz qaldıqları yerlərə gedə bilmiş və əsrin soyqırımını lentə köçürərək əbədiləşdirmişdir. Onun video kadrları bütün dünyada göstərilmiş, ermənilərin bu tarixi cinayəti ilə dünyanı tanış etmişdi.

Ermənistan hərbi birlikləri qətlə yetirdikləri insanların üzərində xüsusi əməliyyat aparaq onların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış,hamilə qadınların qarınlarını yarmış, adamları diridiri torpağa basdırmış və ya yandırmışlar. Bu müsibətləri gözləri ilə görən Xəzangül Məmmədova adlı bir qız bildirirdi ki, gözümüzün qarşısında əvvəlcə atamın ayaqlarına benzin tökdülər, sonra isə od vurub yandırdılar. Milli ordunun iki əsgərinin diridiri başını kəsdilər. Əsir düşmüş başqa bir Xocalı sakininin sonralar dediklərindən: “Bizi erməni qəbiristanlığına gətirdilər. Dörd nəfər gənc məhsəti türkünü və üç azərbaycanlını vaxtı ilə türklərə qarşı vuruşmuş bir ermənininin qəbri üstündə qurban kəsdilər. Bundan sonra quldurlar valideynlərinin gözü qabağında uşaqlara isgəncə verib öldürdülər. Sonra buldozerlərin köməyi ilə meyitləri dərəyə tökdülər. İnsan cildinə girmiş bu vəhşilərin ürəyi bununla da soyumadı. Onlar əynində Milli Ordunun forması olan iki azərbaycanlı gətirdilər və vint açanla onların gözlərini dəldilər.

Xocalının müdafiəçilərindən Əlif Hacıyev, Tofiq Hüseynov, İnqilab İsmayılov, Adil Quliyev, Fizuli Rüstəmov, Şöhrət Həsənov qeyri-bərabər döyüşlərdə fövqəladə qəhrəmanlıqlar göstərmiş, çoxsaylı Xocalı sakinlərinin xilası yolunda şəhid olmuşlar. Bütün bu faciələrin əsl səbəbkarlarından biri Zori Balayan “Ruhumuzun dirçəlişi” adlı kitabında 1992-ci il fevralın 26-da Xocalıda törətdikləri soyqırım haqqında yazır: “Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra uşağın başından, sinəsindən və qarnından dərisini soydu. 7 dəqiqə sonra uşaq dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha üç türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim”.

Bu amansız bəşəri cinayətin ilk qiymətini ümumilli lider Heydər Əliyev verdi. Ulu öndər deyirdi ki, “Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağılasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir”. 1993-cü ildə Azərbaycan prezidenti Heydər Əliyevin təşəbbüsü ilə fevralın 26-sı Xocalı soyqırımı günü kimi qəbul olundu. Heydər Əliyevin 25 fevral 1997-ci il tarixdə verdiyi qərar nəticəsində hər il fevralın 26-sı saat 17.00 da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan olundu.

Beləliklə, fikirimizi ölkə rəhbəri İlham Əliyevin sözləri ilə yekunlaşdırmaq istəyirik: “Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır”.

**Fəxrəddin MƏMMƏDOV,**
*İctimai fənlər kafedrasının professoru*

# 50-ci uşaq üzərində Koxlear implantasiya əməliyyatı aparıldı

**Azərbaycan Tibb Universiteti Tədris Cərrahiyyə Klinikasında koxlear implantasiya əməliyyatları uğurla davam etdirilir. Bu gün həmin istiqamətdə 50-ci uşaq üzərində cərrahiyyə əməliyyatı icra olundu.**





Koxlear implantasiya əməliyyatı ağır dərəcəli eşitmə zəifliyi olan, eşitmə cihazı taxmasına baxmayaraq nitqi inkişaf etməyən uşaqlara icra olunan əməliyyatdır. Bu əməliyyatla implant cihazı daxili qulağa yerləşdirilir. Əməliyyatın məqsədi uşaqlarda nitqin inkişafı üçün yetərli dərəcədə eşitməni təmin etməkdir. Erkən yaş dövründə koxlear implantasiya icra olunan uşaqlarda nitqin inkişafı yaşıdaları kimi olur və bu, onları “eşitmə qüsurlu uşaq” statusundan qurtarır.

Klinikada koxlear implantasiya əməliyyatları sıxlıqla, ardıcıl intensivliklə olunur. Əməliyyatdan sonra lazım olan reabilitasiya seansları keçirilir. Əməliyyatı tibb üzrə fəlsəfə doktoru Yusif Hacıyev uğurla icra edir. Əməliyyatdan sonrakı reabilitasiya məsələləri bu sahədə təkmilləşmiş mütəxəssis - t.ü.f.d. Afaq Abbasova tərəfindən həyata keçirilir.

Uşaqlara yaxından yardım edən tibbi personalın müdaxiləsi öz bəhrəsini verir. Artıq əməliyyat olunan uşaqların danışığını eşitmək ailələrin sevincinə səbəb olur, bu isə tibb heyəti üzvlərinin ən dəyərli mükafatlarıdır.

# Hər il fevralın 9-da stomatoloqların peşə bayramı - Beynəlxalq Stomatoloq Günü qeyd olunur

**Stomatoloq ən qədim peşələrdən biridir. Arxeoloqlar qazıntılar zamanı bu qədim sənətin nümayəndələrinin fəaliyyətlərinin çoxsaylı sübutlarını aşkar etmişlər. Qalıqlar hələ eramızdan əvvəl yeddi min il əvvələ təsadüf edir. Bayramın özü isə nisbətən gəncdir.**



Bu tarix təsadüfən seçilməyib. Həmin gün katolik kilsəsinin xristian şəhidi isgəndəriyyəli Apolloniya anılır. Xristianlıqdan dönməsi üçün Apolloniyaya dəhşətli işgəncələr verilib. Müqəddəs Apolloniyanın məruz qaldığı işgəncələrin atributu kəlbətin olub. Müqəddəs qadın bütün işgəncələrə davam gətirib, onu tonqalda yandırmaq ilə hədələyəndə, o, özü alovun içinə addımlayıb. Bu hadisə 249-cu il fevralın 9-da baş verib.

O vaxtdan belə bir inanc yaranıb: “Santa Apolloniya!” deyən kimi, dişağrısı keçir.

ATU-nun Stomatologiya Klinikasında fəaliyyət göstərən stomatoloqlarımızı, stomatologiya fakültəsinin bütün tələbələrini peşə bayramları münasibətilə təbrik edirik!

# Cərrahiyyə Klinikasında İstanbuldan gələn həkimlərin iştirakı ilə bədxassəli şiş mövzusunda seminar keçirilib

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında İstanbul Medipol Universitetinin Medipol Mega Xəstəxanasının nümayəndələri ilə birlikdə “İyi ve kötü huylu tümörlerine yaklaşmalar” (Qlial şiş -bədxassəli şiş) mövzusunda seminar keçirilib.**



ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev seminarı açaraq, bu cür tədbirlərin önəmindən bəhs edib.

Daha sonra Medipol Mega Xəstəxanasının beyin və sinir cərrahiyyəsi rəhbəri, professor Dr. Nejat Akalan “Glial tümör, cerrahi tedavi prinsipleri ve yeni gelişmeleri” mövzusunda təqdimatla çıxış edib.

Seminarın davamında, video roliklərlə hazırlanmış geniş mühazirələr dinlənilib.

Hər iki universitet xəstəxanalarının həkimləri arasında qarşılıqlı müzakirə və danışıqlar aparılıb.

**ATU-nun mətbuat xidməti**

## Yubiley

**Akif Nurəddin oğlu Qarayev universitetimizin öz zəhmətsevərliyi, nümunəvi ziyalılığı ilə seçilən alimlərindən biridir. O, 1947-ci ilin fevralında İmişli rayonunda anadan olub. 1954-1958-ci illərdə Kəlbəcər rayonunda ibtidai məktəbə getmiş, 1958-1960-cı illərdə Şəmkir şəhər orta məktəbində oxumuşdur. Bundan sonra təhsilini İmişli şəhər 1 saylı orta məktəbində davam etdirən Akif Qarayev 1965-ci ildə həmin məktəbi gümüş medalla bitirmişdir. Elə həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun əczaçılıq fakültəsinə qəbul olmuş, 1970-ci ildə isə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək təyinatla Respublika Baş Apteklər İdarəsinin Gəncə şəhər şöbəsində kimyaçı-analitik vəzifəsində çalışmışdır.**



# Ziyalılığı ilə seçilən pedaqoq

Elmə olan həvəs və gələcək arzuları gənc mütəxəssisi elə həmin ildə Azərbaycan EA-nın A.Qarayev adına Fiziologiya İnstitutunun aspiranturasına gətirib çıxarır. 1973-cü ildə biokimya ixtisası üzrə elmi işini başa vurduqdan sonra N.Nərimanov adına ADTİ-nin bioloji kimya kafedrasında assisent vəzifəsinə işə qəbul edilir. 1975-ci ildə biologiya elmləri namizədi alimlik dərəcəsi alan Akif müəllim artıq 44 ildir ki, bu fənni tədris edir. 1984-cü ildən kafedranın baş müəllimi, 1988-ci ildən isə dosentidir. Uzun müddət kafedranın tədris hissə müdiri vəzifəsində çalışan Akif müəllim hazırda da bu vəzifəni icra etməkdədir. Onun müəllifi və həmmüəllifi olduğu müxtəlif illərdə nəşr edilən kitablar pedaqoji fəaliyyətinin əsas göstəricilərindəndir.

Ümumilikdə 70-dən çox elmi tezis və məqalələr, metodik tövsiyələrin hazırlanmasında zəhməti olan dosent Akif Qarayev eyni zamanda TQDK-nın rezidentura şöbəsinin biokimya ixtisası üzrə ekspertidir. Akif müəllim yaxşı alim, pedaqoq olmaqla yanaşı, gözəl ailə başçısı, təvazökar şəxs, sədaqətli dostdur. Bioloji kimya kafedrasının müdiri, biologiya elmləri doktoru, professor Arif Əfəndiyevin söylədiklərindən: “Dosent Akif Qarayev haqqında yalnız xoş sözlər deyə bilərəm. O, yaxşı müəllim, ixtisasını dərindən bilən, obyektiv, tələbkar, daim öz üzərində çalışan və işinə məsuliyyətlə yanaşan pedaqoqlarımızdan olub, müəllim-tələbə heyətinin rəğbətini qazanıb. Mən onunla 40 ildən çoxdur ki, dostluq edirəm və bu dostluqdan həmişə məmnun olmuşam.”

Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, çox hörmətli müəllimim dosent Akif Miriyevin dediklərindən: “Dosent Akif Qarayev şəxsiyyətə, ölkə vətəndaşlığına fəal həyat mövqeyindən qiymət verməyi üstün tutan ziyalılarımızdandır. O, müəllim ömrünü, bu dünyada yaşamağın məqsədini doğma millətə, dövlətə, onun tarixi və mədəni özəlliklərinə ehtiramda və təmənnasız xidmətdə görür.”

İş yoldaşımız, həmkarımız dosent Akif Qarayevlə fəxr edərək əminliklə deyə bilərik ki, onun keçdiyi zəhmətlə dolu, şərəfli ömür yolu bu günün gəncliyi üçün də bir nümunədir. Biz kollektivimiz adından Akif müəllimi 70 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona ən gözəl nemət olan can sağlığı, uzun ömür və işlərində yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

**Hafiz OSMANOV,**
*Bioloji kimya kafedrasının əməkdaşı*

# Balığın insan beyninə faydaları nələrdir?

**Uşaqların beyni üçün balığın tərkibində fosforun faydası hamıya məlumdur. Lakin ABŞ-ın Şimali Karolina Universitetinin alimləri müəyyən ediblər ki, beyinə birbaşa təsir edən balığın tərkibindəki Omega-3 yağ turşusu, daha dəqiq dokozageksaen turşusudur. Dokozageksaen Omega-3-ün tərkibində olan iki yağ turşusundan biridir ki, sinir hüceyrələrinin membranının 20 faizini bu maddə təşkil edir.**



Turşular sinir hüceyrələri arasında məlumatın ötürülməsində aparıcı rol oynayır ki, onların azlığı bu prosesin ləngiməsinə səbəb olur.

AZƏRTAC “Arqumentı nedeli” saytına istinadla xəbər verir ki, 7-12 yaş arası uşaqlarda bu maddəni az qəbul etdikdə digərlərinə nisbətən dərslərində geriləmə müşahidə edilir. Məhz bu yaşlarda beyin strukturu yenidən biçimlənir. Bu baxımdan lazimi maddələrin qəbulu əqli fəaliyyətin düzgün inkişafı üçün çox vacibdir.

Alimlər bildiriblər ki, Omega-3 preparatının mövcud olmasına baxmayaraq onun təbii mənbələrdən qəbul edilməsi daha məqsədəuyğundur. Təbiətdə bu maddənin mənbəyi dəniz məhsullarıdır.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**
- III cərrahi xəstəliklər kafedrası
- Patoloji anatomiya kafedrası

**Elmi Tədqiqat Mərkəzi:**
- Biokimya kafedrası üzrə elmi-tədqiqat laboratoriyası

Böyük elmi işçi: - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri , Ənvər Qasımzadə küçəsi 14:**
**Telefon: (012) 597-43-23**

# Günorta yuxusu uşaqlarda nitqin inkişafına müsbət təsir göstərir

**ABŞ-ın Arizona Universitetinin alimləri günorta yuxusunun uşaqlarda nitqin inkişafına müsbət təsir etdiyini müəyyənləşdiriblər.**



AZƏRTAC "Komsomolskaya pravda" saytına istinadla xəbər verir ki, 40 uşağın iştiraki etdiyi tədqiqatlarda körpələr iki qrupa ayrılıblar. Birinci qrupun iştirakçıları mütəmadi olaraq öyrəndikləri bir neçə sözdən sonra günorta yuxusuna yollanıblar. Digər qrupun uşaqları isə eyni sözləri öyrəndikdən sonra yatmağa deyil, oyun meydançasına və ya yeməyə aparılıblar. Araşdırmalardan günorta yatan uşaqların digərlərinə nisbətən öyrəndikləri sözləri daha yaxşı qavradıqları məlum olub.

Bununla yanaşı alimlər belə qənaətə gəliblər ki, uşaqların böyüklərdən fərqli olaraq sutkada səkkiz deyil, 10-12 saat yatmaları vacibdir.

Onların fikrincə məhz bu yuxu rejiminə əsasən tam dincəlməklə yanaşı, uşaqlarda idrak qabiliyyəti də daha yaxşı inkişaf edir.

### Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin V kurs, 305$^{b}$ qrup tələbəsi Bingöl Mərtcanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tibb aləmində

# 11 fevral beynəlxalq təqvimdə Dünya Xəstələr Günü kimi qeyd olunur



**AZƏRTAC xəbər verir ki, 1993-cü ildən hər il fevralın 11-i Dünya Xəstələr Günü kimi qeyd olunur. Bu əlamətdar Gün Roma Papası II İohann Pavel tərəfindən 1992-ci il mayın 13-də təsis edilib. Tarixin seçilməsi isə katoliklərin hər il fevralın 11-də sağlamlıqları üçün dua etmələri ilə bağlıdır.**

Bu Günün təsis olunması əsasən sosial addım hesab olunur. Belə ki, 11 fevral bir sıra xəstəliklərdən əziyyət çəkən insanlara dəstək məqsədilə müxtəlif tədbirlər keçirilir, xəstəxanalar ziyarət olunur, sağlamlıq və sağlam həyat tərzi istiqamətində profilaktik addımlar atılır.

# Malyariyaya yoluxmuş insanlarda ağcaqanadları cəlb edən maddə aşkarlanıb

**Uzun illər boyu alimlər bildirirlər ki, malyariya ağcaqanadları müvafiq xəstəliyə yoluxmuş adamların qanını sormağa daha çox meyillidir. Beləliklə, malyariya törədicisinin digər insanlara keçməsi ehtimalı artır.**



Uzun illər boyu alimlər bildirirlər ki, malyariya ağcaqanadları müvafiq xəstəliyə yoluxmuş adamların qanını sormağa daha çox meyillidir. Beləliklə, malyariya törədicisinin digər insanlara keçməsi ehtimalı artır.

İsveç Kənd Təsərrüfatı Elmləri Akademiyası, Stokholm Universiteti və Kral Texnologiya İnstitutundan bir qrup tədqiqatçı İnqrid Fayenin rəhbərliyi altında müəyyən edib ki, insan qanında olan malyariya paraziti eritrositlərə təsir edən HMBPP adlı xüsusi maddəni hazırlayır. Sonda bu, tənəffüs zamanı verilən nəfəsdə karbon qazı və digər uçucu maddələrin miqdarının çoxalmasına səbəb olur. Ağcaqanadlar belə adamların qanını nəinki sorur, həm də birdəfəyə daha böyük həcmdə soraraq malyariya parazitlərinin böyük miqdarda daşıyıcısına çevrilir.

İsveç KİV-lərinin yaydığı məlumata görə, bu kəşf hər il 430 mindən çox insanın ölümünə səbəb olan malyariyaya qarşı mübarizəyə böyük töhfə verəcək. Məsələn, HMBPP maddəsindən istifadə etməklə malyariya ağcaqanadlarını cəlb edən "tələ" qurmaq olar.

# Lazer vasitəsilə beyin xərçəngini analiz etmək mümkün ola bilər

**◆ Lazerlər cərrahlara beyin xərçəngini sürətli analiz etməyə və nə qədər toxumanın götürülməsinə qərar verməyə kömək edə bilər.**



AZƏRTAC "bbc.com" saytına istinadla xəbər verir ki, SRS mikroskopu adı verilən bu cihaz Miçiqan Universitetinin tibb fakültəsində və Harvard Universitetində 360-dan çox pasiyent üzərində təcrübədən keçirilib.

Beyin toxumalarının bölmələri dondurularaq laboratoriyaya aparılır, rənglərlə boyanır və sonra analiz edilir. Proses 30-40 dəqiqə davam edir. Həmin texnika vasitəsilə toxumalar üzərinə lazer işığı salınır. Lazer şüalarının xassələri "vuruş"dan asılı olaraq dəyişir. Xərçəngə yoluxmuş hüceyrə ilə beynin sağlam toxumalarının fərqli kimyası cərrahlara toxumaların xarici kənarını tapmağa kömək edir.

Bağırsaq xərçəngi kimi bu xəstəliyin digər növlərində də həkimlər əhəmiyyətli olmayan ətraf toxumaları götürə bilirlər. İşin ən çətin tərəfi beyində gərəkli olmayan toxumanın olmamasıdır.

Tədqiqatçılar texnologiyanın uzun müddət kliniki təcrübədən keçirilməsinin lazım olduğunu vurğulayıblar. Lakin cihaz vasitəsilə sağ qalma şansını artırmağın mümkünlüyü də müəyyənləşməyib. Alimləri ən çox düşündürən isə bu prosesdən az istifadə etməyin xərçəngin bərpa olunmasına, çox istifadənin isə əlilliyə səbəb ola bilməsidir.

## Allah rəhmət eləsin!

Azərbaycan dili kafedrasının kollektivi, "Təbib" qəzetinin, Əsaslı kitabxananın və inzibati təsərrüfat şöbəsinin əməkdaşları Azərbaycan dili kafedrasının dosenti Məfkurə Hüseynovaya bacısı

**Klara xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın dosenti Akif Qarayevə bacısı

**Kifayət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın asisstenti Gündüz Əhmədova

**əmisinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan dili kafedrasının əməkdaşları göz xəstəlikləri kafedrasının müdiri, professor Paşa Qəlbinura bacısı

**Güldəstə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

Hərbi tibb fakültəsinin əməkdaşları hərbi tibb məktəbinin rəisi vəzifəsini müvəqqəti icra edən Sahib Məmmədova anası

**Adilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları iş yoldaşları dosent Pərvinə xanıma əzizi

**Teyyub Məmməd oğlunun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98$^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800